# GÖYƏRÇİN

ISSN- 0207- 4710

11

2005-ci il

Özün rənglə



OYUNLAR

ŞERLƏR

# QUŞLARLA NƏ İŞİN VAR!

Balaca qız Göyərçin
Çıxmışdı bağça-bağa,
Səhər-səhər bir azca
Gəzməyə-oynamağa.
Qarpız boyda bir topu
Gah atır, gah tuturdu.
Bir az belə oynayıb,
Kölgəlikdə oturdu.

Güllü bayram paltarı
Geyib bəzənmişdi bağ.
Ağ, qırmızı, göy, yaşıl,Nə
qəşəngdi hər budaq!
Budaqlar yelləndikcə
Yarpaqlar tərpəşirdi.
Yuvalarda balalar
Civ-civ civildəşirdi
Ay aman!
Nə səsdir o?
Quşlar niyə çığırır?
Kim tökür yarpaqları?
Budaqları kim qırır?





Tez getdi o tərəfə
Göyərçin qaça-qaça:
Gördü bir yekə pişik
Dırmaşıbdır ağaca.
Pişik, nə pişik!..
Ay dad,
Yekəbaş, palazqulaq.
Dərisi pələng kimi
Sapsarı, zolaq-zolaq.
Gözləri par-par yanır,
Quyruğu var bir şələ...
Yaxınlaşıb yuvaya,
Ancaq çatmayıb hələ.
Quşcuğazlar çığrışır,
Hamı verib səs-səsə.
Vuruşurlar pişiklə
Yazıqlar əsə-əsə.
Elə bu vaxt Göyərçin
Gəlib haraya çatdı.
Bərk qışqırıb, topunu
Pişiyə sarı atdı.
Top dəydi düz başından,
Pişik qorxudan çaşdı.
Başı hərləndi yaman,
Əli budaqdan qaçdı.
Top vurub yıxdı onu,
Göydə mayallaq aşdı.
Əzildi ağzı-burnu,
Qaçdı getdi o, bağdan.
Göyərçin də çığırdı
Arxasınca uzaqdan.
- Bax, yuva dağıdanın
Axırı belə olar!
Pişiksən, get siçan tut,
Quşlarla nə işin var?!

Rəssam
Altay

